

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 95 (23.982)

24 may 2022-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə mayın 22-də Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdə olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü olub. Görüşdə Prezident İlham Əliyev Şarl Mişelin Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, iki ölkənin münasibətlərinin normallaşdırılması proseslərinə verdiyi dəstəyi yüksək qiymətləndirib. Dövlətimizin başçısı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan 5 prinsipin təqdim olunduğunu qeyd edib və bu prinsiplərin sülh müqaviləsinin hazırlanmasında əsas rol oynadığını vurğulayıb.

Mayın 22-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib. Qeyd olunub ki, müzakirənin yekununda aşağıdakı nəticələrə nail olunub: sərhəd məsələləri ilə bağlı sərhəd komissiyalarının birinci birgə iclası dövlətlərarası sərhəddə yaxın günlərdə baş tutacaq. Kommunikasiya ilə əlaqədar tərəflər Azərbaycanın qərb hissəsi ilə Naxçıvan və Azərbaycan ərazisindən Ermənistanın müxtəlif hissələri arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılığa gəliblər. Ermənistan ilə Azərbaycan arasında dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsinə dair müzakirəni davam etdirmək barədə də razılığa gəlinib.

*Ümummilli lider Heydər Əliyev ideyalarının dönmədən və ardıcıl şəkildə reallaşdırılması, siyasi strategiyanın düzgün həyata keçirilməsi iqtisadi inkişaf tempinin qorunub saxlanılması və yüksəldilməsi ilə nəticələnməkdədir. Bu gün nəinki yerli sakinlər, Naxçıvana qədəm qoyan hər bir qonaq, siyasi xadim, iqtisadçı mütəxəssis, Avropanın inkişaf etmiş bölgələrindən gələn çoxsaylı turistlər də bu gerçəkliyi təsdiqləyir ki, muxtar respublika sürətli və davamlı inkişaf yolundadır. Bu, əhalinin sosial rifah halının yüksəldilməsi ilə bağlı real statistik göstəricilərdə də öz təzahürünü tapır. Muxtar respublikada 2022-ci ilin yanvar-aprel aylarında 776 milyon 670 min 600 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövründəki göstəricidən 1,7 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz artaraq 1676,8 manat olmuşdur. Prezident cənab İlham Əliyev inkişafın real səbəblərini belə açıqlamışdır:* ***“Bu gün Naxçıvan, sözün əsl mənasında, inamla, uğurla inkişaf edir... Bu uğurların təməlində ulu öndərin siyasəti dayanır. Biz, onun davamçıları bu siyasətə sadiqik”.***

İcmal

# Məqsədyönlü siyasət və düzgün iqtisadi strategiya ilə hədəflərə çatan, davamlı və sürətli inkişaf yolu ilə irəliləyən, müasirləşən qədim diyar

## *Aprel ayının ümumi siyasi-iqtisadi mənzərəsi bunu aydın şəkildə əks etdirir*

### *Erməni vandalizminin qurbanlarının qisası alındı, əziz xatirələri isə tarixin təkrarlanmaması naminə heç bir zaman unudulmayacaq*

1918-ci ilin martında təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı soyqırımı və deportasiya həyata keçirilmiş, Bakıda, Naxçıvanda, Qubada, Şamaxıda və digər bölgələrdə minlərlə insan qətlə yetirilmişdir. Azərbaycanlılara qarşı törədilmiş soyqırımlara ilk dəfə ümummilli liderimiz Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verilmişdir. Dahi şəxsiyyətin müəyyənləşdirdiyi xarici siyasət, siyasi-hərbi strategiya Azərbaycanın haqq səsinin dünyaya çatdırılması və erməni saxtakarlığının ifşasında, Azərbaycanın real beynəlxalq imicinin formalaşmasında müstəsna rol oynamışdır. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanılması ilə beynəlxalq hüquqla təsbit olunan ərazi bütövlüyümüz təmin olundu. Azərbaycan dövləti və xalqı tarixi Qələbə ilə həm də ermənilərin iki yüzillik əsassız iddialarının boşa çıxmasına, həqiqətin təntənəsinə nail oldu, xalqımıza qarşı törədilmiş soyqırımlara ən layiqli cavab verdi, beynəlxalq humanizm prinsiplərinin, bəşəri dəyərlərin ən ali müdafiəçisi olduğunu sübut etdi.



Vətəni qorumağın yolu döyüş meydanında hərbi rəşadət göstərməklə yanaşı, həm də Vətəni abadlaşdırmaqdan, onun yeraltı və yerüstü təbii sərvətlərini, ekoloji mühitini qoruyub, artırıb gələcək nəsillərə çatdırmaqdan, coğrafi-təbii, iqtisadi resurslarından düzgün şəkildə istifadə etməkdən keçir. Yurda bağlılığın ən gözəl nümunəsi zəhmətsevərliklə məhsuldarlıq əldə etmək, ana yurdu yaşıllıqlar, gözəlliklər diyarına çevirməkdir. Bu proses ənənəvi və kütləvi şəkildə davam etdirildikdə, rəmzi ideya və mahiyyət daşımaqla daha böyük məna və dəyər kəsb etdikdə əsl milli həmrəylik təcəssümünə çevrilir.

Aprelin 2-də Naxçıvan Muxtar Respublikasında 31 mart soyqırımı qurbanlarının əziz xatirəsinə həsr olunmuş ağacəkmə keçirilmiş, meyvə bağları və yaşıllıqlar salınmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxsin kollektivləri Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun kənarındakı 3 hektar ərazidə keçirilən ağacəkmədə iştirak etmişlər. Burada 2 hektar sahədə meyvə bağı salınmış, ərazidəki 1 hektar meyvə bağında isə bərpa əkini aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ağacəkmədə iştirak etmiş, meyvə tingləri əkmişdir. Həmin gün muxtar respublikada soyqırımı qurbanlarının əziz xatirəsinə həsr olunmuş ağacəkmədə 20 minə yaxın sakin iştirak etmiş, 13 mindən artıq meyvə və meşə tingləri əkilmişdir.

### *Muxtar respublikada kənd təsərrüfatının müasir inkişaf mərhələsinə yüksəlməsi aparılan uğurlu aqrar siyasətin bəhrəsidir*

Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafına göstərilən dövlət qayğısı və həyata keçirilən tədbirlər ərzaq təhlükəsizliyini təmin etmişdir. Muxtar respublikada aparılan çoxsaylı aqrar islahatlar, görülən kompleks tədbirlər sırasında yeni texnologiyaların tətbiqi başlıca amil kimi götürülür. Bu sahəyə göstərilən qayğının nəticəsidir ki, texnika parkı tamamilə yenilənib. Ən müasir müxtəlif texnika və avadanlıqlar muxtar respublikanın torpaq mülkiyyətçiləri və fermerlərinin istifadəsinə verilib. Təsadüfi deyil ki, fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ali Məclisin Sədri digər mühüm məsələlərlə yanaşı, aqrar sektorda müasir texnologiyadan istifadənin məhsuldarlıqda başlıca amil olduğunu nəzərə alaraq “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə muxtar respublikaya yeni texnikalar və ehtiyat hissələri gətirmək, bu zaman fermer və torpaq mülkiyyətçilərinin təkliflərini nəzərə almaq, texniki xidmət işini düzgün təşkil etməklə bağlı da mühüm tövsiyə və tapşırıqlar vermişdir.

Qeyd edək ki, 2006-cı ildən etibarən aqrolizinq sahəsində görülən işlərin nəticəsi olaraq muxtar respublikada 3000-ə yaxın texnika lizinqə verilmiş, həmin texnikaların 70 faizə yaxını dəyəri tam ödənilməklə sahibkarların şəxsi mülkiyyətinə keçirilmişdir. Bu da imkan verir ki, həm rəqabət olsun, həm də torpağın əkilib-becərilməsində əvvəlki dövrlərdə olan problemlər ortadan qaldırılsın. Hər il muxtar respublikada yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. 2021-ci ildə muxtar respublikada 970 hektara yaxın yeni torpaqlar əkin dövriyyəsinə daxil edilmişdir. Buraya həm meyvə bağları, həm də əkin sahələri aiddir. Bunların əkilib-becərilməsi üçün texnikaların gətirilməsi əhaliyə aqrolizinq sahəsində xidmətlər göstərilməsi üçün yaradılan “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti həm lizinq xidməti, həm də texniki xidmət işlərini intensiv şəkildə həyata keçirir. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikada torpaq mülkiyyətçiləri və fermerlərin sayı artır, bol məhsul istehsal edilir, bir çox məhsullar üzrə tələbat yerli istehsal hesabına ödənilir, əhali məşğulluğu təmin olunur.

Hazırda “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin bazasında 473 texnika və avadanlıq mövcuddur. Cəmiyyətin fəaliyyəti dövründə 1180 sahibkara lizinqə verilmiş texnikalara görə 11 milyon 841 min manat güzəşt tətbiq edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarının icrası ilə əlaqədar 2021-ci ildə və 2022-ci ilin üç ayı ərzində 10 kiçikölçülü traktor, 3 kiçikölçülü kotan, 9 yerşumlayan, 25 yaş və quru otdoğrayan maşın, 9 arpa-buğda qırma maşını, 5 frez, 1 kiçikölçülü rotorlu otbiçən, 3 südsağan aqreqat, 1 qoşqu, 2 kiçikölçülü kartofçıxaran, 1 dırmıq, 4 xamaçəkən, 2 yunqırxan və 110 dəst suvarma sistemi lizinq yolu ilə kiçik ailə təsərrüfatı sahiblərinə verilmişdir.

Muxtar respublikada kənd təsərrüfatının prioritet sahə kimi müəyyənləşdirilməsi yerli istehsalın həcminin artmasına, ixrac imkanlarının yaradılması və əhalinin məşğulluğunun təmin olunmasına şərait yaratmışdır. Bu gün torpaq mülkiyyətçiləri və fermerlərin, həmçinin ailə təsərrüfatçılarının müasir kənd təsərrüfatı texnika və texnoloji avadanlıqları ilə təmin olunması da məhsul istehsalında rentabelliyi artıran əsas tədbirlərdəndir. Aqrar sahədə müasir texnologiyaların tətbiqi məhsulun itkisiz və vaxtında yığılmasına, məhsuldarlığın yüksəldilməsinə, əl əməyinin yüngülləşdirilməsinə və çəkilən xərclərin azalmasına imkan verir.

Aprelin 5-də “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətində yeni kənd təsərrüfatı texnikaları və avadanlıqlarının

*Ardı 2-ci səhifədə*

təqdimatı olmuşdur. Ali Məclisin Sədri demişdir: ***“Muxtar respublikada həm pandemiya dövründə, həm də 44 günlük İkinci Qarabağ müharibəsi dövründə heç bir ərzaq qıtlığı hiss olunmadı. Bu gün də bazarlarda qiymətlər sabitdir, istehsal var və əhali də ildən-ilə əkin sahələrini genişləndirməklə bərabər, onlar müasir aqrotexniki qulluq qaydalarını da öyrənirlər ki, bunun da nəticəsində məhsuldarlıq artır. Ona görə də aqrolizinq fəaliyyətini bundan sonra da əhaliyə xidmət sahəsində davam etdirməli, əhalinin sifarişi əsasında lizinqə texnika və avadanlıqlar gətirilməli, əvvəlki illərdən qalan texnikaların qiymətlərinə isə Nazirlər Kabineti tərəfindən yenidən baxılmalıdır. Bu işlərin davam etdirilməsi gələcəkdə muxtar respublikada kənd təsərrüfatı sahəsində məhsuldarlığın və məhsul çeşidinin artırılmasına şərait yaradacaqdır. Əgər Sovetlər Birliyi dövründə və müstəqilliyin ilk illərində muxtar respublikaya kartof, soğan və digər kənd təsərrüfatı məhsulları, əsasən, başqa yerlərdən gətirilirdisə, artıq bu gün muxtar respublika özünü bu məhsullarla təmin edir. Hətta artıq bir neçə ildir ki, muxtar respublikadan kənd təsərrüfatı məhsullarının ixracına başlanılıbdır. Bunlar nailiyyətlərdir”.*** Ali Məclisin Sədri aqrar sahənin inkişafında əməyi olanlara təşəkkürünü bildirmiş və gələcək fəaliyyətlərində uğurlar arzulamışdır. Sonra yeni alınmış texnikalara baxış olmuşdur. Qeyd olunmuşdur ki, “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən fəaliyyəti dövründə 3471 texnika və texnoloji avadanlıqlar alınmış, onlardan 2900-ü sahibkarlara lizinqə verilmişdir. Ali Məclis Sədrinin tapşırığı ilə 2021-ci ildə 327, 2022-ci ilin ötən dövründə isə sahibkarların texniki təminatını düzgün təmin etmək üçün onların tələbatına uyğun və sifarişləri əsasında 4 qarğıdalı, günəbaxan və tərəvəz toxumu əkən, 4 arpa-buğda qırma maşını, 2 bağarası dərmansəpən, 18 kotan, 9 rotorlu və əl ilə otbiçən, 4 çizel, 6 arxaçan, 12 gübrəsəpən, 10 yaş və quru otdoğrayan maşın olmaqla, ümumilikdə, 69 kənd təsərrüfatı texnikası alınmışdır. Alınmış texnikalardan 2021-ci ildə 249-u lizinqə, 97-si nağd, 2022-ci ildə isə 32-si lizinqə, 2-si isə nağd olmaqla, ümumilikdə, 380 texnika və texnoloji avadanlıqlar sahibkarlara verilmişdir. Bildirilmişdir ki, cəmiyyətin özündə və rayon bazalarında yerləşən bitkiçilik və heyvandarlıq apteklərində kənd təsərrüfatının müxtəlif sahələrində istifadə olunan dərmanlar, xüsusilə tərəvəzlərin zərərvericilərə qarşı qorunmasında əhəmiyyətli olan gübrələr satışa çıxarılır. Dərmanların istifadə qaydası haqqında torpaq mülkiyyətçilərinə və fermerlərə əvvəlcədən məlumat verilir. Cəmiyyətin anbarında kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri də vardır. Gübrə anbarlarına baxış zamanı bildirilmişdir ki, bu il, ümumilikdə, 100 ton kompozit gübrəsi alınmışdır ki, sahibkarlara satışı həyata keçirilir. Cəmiyyətin rayon bazalarında gübrə ehtiyatı yaradılmışdır. Artıq 2021-2022-ci il üçün taxıl istehsalçılarına karbamid gübrəsinin paylanılması yekunlaşmışdır.

Ali Məclisin Sədri Kənd Təsərrüfatı Nazirliyi tərəfindən səyyar aptekin yaradılması, günəbaxan biçən texnikaların alınması, yeni texnika və avadanlıqların gətirilərək lizinq və nağd formada satışının təşkil olunması, bələdiyyə və dövlət mülkiyyətində olan dəmyə torpaqların “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən əkininin həyata keçirilməsi, günəbaxan və qarğıdalı əkinlərinin təşviqi barədə tapşırıqlar vermişdir.

*Meliorasiya və irriqasiya tədbirlərinin intensiv şəkildə həyata keçirilməsi aqrar siyasətin əsasını təşkil edir*

Muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması, müasir hidrotexniki qurğuların tikilməsi diqqətdə saxlanılır. Torpaqların su təminatının yaxşılaşdırılması əkinçilikdə yüksək məhsuldarlığın əldə olunmasına və ərzaq təhlükəsizliyinə töhfə verir, tələbat yerli istehsal hesabına ödənilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair” Tədbirlər Planına uyğun olaraq bu sahədə işlər davam etdirilir, yeni nasos stansiyaları tikilir, torpaq sahələri əkin dövriyyəsinə qatılır. Fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə də meliorasiya və irriqasiya tədbirlərinin intensiv şəkildə həyata keçirilməsi mühüm məsələ kimi diqqətdə saxlanılmış, Ali Məclisin Sədri müşavirədə tapşırmışdır ki, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti hidrotexniki qurğulara baxış keçirməli, anbarlarda su ehtiyatı yaradılmalı, kanal və arxlar, kollektor və drenaj şəbəkələri lildən təmizlənməli, yerli icra hakimiyyətləri ilə birlikdə suvarma mövsümünə hazırlıq görülməli, su bölgüsü və sudan qənaətlə istifadə diqqətdə saxlanılmalıdır. Aprelin 27-də Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 2200 hektar torpaq sahəsini suvarma suyu ilə təmin edəcək yeni nasos stansiyası və təzyiqli boru xətti istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Məlumat verilmişdir ki, su Araz çayından öz axını ilə kanal vasitəsilə suqəbuledici hovuza verilir. Nasos stansiyasına suyun verilməsi üçün 70 metr uzunluğunda suqətirici kanal tikilmişdir. Hovuzun girişində təmir zamanı suyun çay ilə əlaqəsini kəsmək üçün hidravlik qapı və su ilə daxil olan tullantı və balıqları saxlamaq üçün metal qəfəs quraşdırılmışdır. Hovuzdan su nasos stansiyasına diametri 720 millimetr olan 3 boru vasitəsilə daxil olur. Nasos stansiyasında 1-i ehtiyat olmaqla hər birinin su sərfi saatda 2000 kubmetr olan 3 nasos, gücü 800 kilovat olan 3 elektrik mühərriki və nasosların hər birinin girişində siyirtmə, eyni zamanda nasosların çıxışında 25 atmosfer təzyiqə davam gətirən temperatur kompensatoru, əks-klapan və tənzimləyici siyirtmə qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: ***“Ölkəmizdə, eyni zamanda muxtar respublikada kənd təsərrüfatı sahəsində mühüm işlər görülür. Torpaqların icarəyə verilməsi və əkin dövriyyəsinə qatılması, yeni suvarma sistemlərinin qurulması vacib məsələdir. Ölkəmizdə bu istiqamətdə xüsusi layihələr həyata keçirilir. Çünki torpaqların əkilməsi bol məhsul istehsalına, yeni iş yerlərinin yaradılmasına və idxaldan asılılığın azaldılmasına xidmət edir. Bu gün dünyada gedən proseslərə nəzər saldıqda görürük ki, ölkələr bir-birinə təzyiq vasitəsi kimi ərzaq və enerji sahələrindən istifadə edir. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında hər iki sahədə görülən işlərin nəticəsidir ki, həm ərzaq məhsulları və enerji ilə etibarlı təminat həyata keçirilir, həm də bu sahələr üzrə ixrac imkanları yaranır”.***

Ali Məclisin Sədri bildirmişdir ki, yeni istifadəyə verilən nasos stansiyası hesabına əkin dövriyyəsinə qatılan torpaq sahələri heç vaxt əkilməyib. Bu məhsuldar torpaqların əkin dövriyyəsinə qatılması üçün nasos stansiyasının fəaliyyətə başlaması imkan verəcək ki, toxumçuluq təsərrüfatı üçün ayrılmış torpaq sahələri su ilə təmin olunsun. Eyni zamanda nasos stansiyasının istifadəyə verilməsi ilə yeni iş yerləri açılmışdır. Nasos stansiyası 2000 hektardan artıq ərazini suvarma suyu ilə təmin edəcəkdir ki, bu da muxtar respublikanın ərzaq təhlükəsizliyinə töhfədir. Nasos stansiyasının su debitinin artıq olması gələcəkdə ətraf ərazilərdə də yeni yeraltı şəbəkələrin qurulmasına və torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verəcəkdir. Həmçinin Araz çayı üzərində olan panton nasos stansiyasında yenidənqurma işləri başa çatandan sonra 10 min hektara yaxın torpaq su ilə təmin olunacaqdır. Qeyd olunub ki, yeni nasos stansiyasının qurulması, istifadəyə verilməsi, yeraltı şəbəkələrin çəkilməsi yerli mütəxəssislər tərəfindən həyata keçirilmişdir. Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində əməyi olanlara təşəkkür etmiş, nasos stansiyasını işə salmışdır.

Bildirilmişdir ki, suyun boru xətti ilə geri qayıdarkən yaratdığı əks-zərbə nəticəsində baş verəcək qəza zamanı nasos stansiyasının su ilə dolma təhlükəsinin qarşısını almaq üçün xətt üzərində əks-klapan, ehtiyat xətt, drenaj və artezian nasosu quraşdırılmışdır. Stansiya nasosları su ilə doldurmaq üçün vakuum sistemi ilə təmin olunmuş, nasosların iş rejiminə nəzarət üçün çıxış xətləri üzərində ölçü cihazları yerləşdirilmişdir. Stansiyanın maşın zalında aqreqatların təmiri, daşınması məqsədilə 3,2 ton yükqaldırma qabiliyyəti olan elektrik talı quraşdırılmış, binanın ətrafına kilid daş döşənmiş, 0,7 hektar sahədə yaşıllıq zolağı salınmışdır. Suyun əraziyə çatdırılması üçün müxtəlif diametrli borularla, ümumilikdə, 6600 metr təzyiqli boru xətti çəkilmişdir. Nasos stansiyasının boru xətti paylayıcı siyirtmə vasitəsilə Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində istifadəyə verilmiş 810 hektar qapalı suvarma şəbəkəsinin mövcud xətti ilə birləşdirilmişdir. Boru xəttinin keçdiyi ərazidə qrunt sularının səviyyəsini aşağı salmaq üçün 1000 metr açıq drenaj kanalı qazılmışdır. Stansiyadan verilən su mövcud və yeni çəkilmiş xətlərlə Böyükdüz kəndinin yuxarı hissəsinə – Naxçıvan-Sədərək magistral avtomobil yolunun kənarına qədər daşınacaqdır. Bu da, öz növbəsində, “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin istifadəsinə ayrılmış 1961, Böyükdüz kənd bələdiyyəsinə aid 46 və dövlət ehtiyat fonduna aid 190 hektar olmaqla, ümumilikdə, 2200 hektar torpaq sahələrini suvarma suyu ilə təmin etməyə imkan verəcəkdir.

Ali Məclisin Sədri əkinlərin aqrotexniki qaydalara uyğun həyata keçirilməsi, torpağın strukturuna uyğun bitkilərin əkilməsi, nasos stansiyalarının ətrafında bağların salınması, muxtar respublikada ehtiyac olan yerlərdə qapalı suvarma şəbəkələrinin qurulması ilə bağlı layihələrin hazırlanması barədə tapşırıqlar vermişdir.

Həmin gün Ali Məclisin Sədri Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 3200 hektar əkin sahəsini suvarma suyu ilə təmin etmək üçün Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin layihəsinə də baxmış, işlərin ilin sonuna kimi yekunlaşdırılması barədə tapşırıqlar vermişdir.

*Muxtar respublikanın biraylıq siyasi-iqtisadi uğurlarını, görülən işlər müqabilində qazanılan nailiyyətləri Ali Məclis Sədrinin bu müdrik fikirləri ilə ümumiləşdirmək olar:* ***“...Görülən işlər və iqtisadi sabitliyin qorunması ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Qarşıdakı dövrdə də ümummilli liderimizin yoluna sədaqət muxtar respublikada kompleks inkişafa səbəb olacaqdır”.***

✍ **Mehriban SULTAN**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

## Daha 44 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılıb



Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsal sahələrinin fasiləsiz və təhlükəsiz təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür. Muxtar respublikanın şəhər və rayon ərazilərindən aprel ayı ərzində daxil olan müraciətlərə əsasən cəmi 44 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 39-u əhali, 5-i isə qeyri-əhali abonentidir.

Ötən ay qaz təsərrüfatında, xüsusilə qəza sahəsində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunmasına diqqət artırılaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində təhsil alan Qaz avadanlıqlarının istismarı və təmiri üzrə qazpaylayıcı stansiyaların operator peşəsinin ixtisasartırma kursu başa çatmışdır. Kursu bitirən 10 müdavimə sertifikat verilmişdir.

Muxtar respublikada əhali qrupundan olan abonentlərin mexaniki qaz sayğaclarının kənar müdaxilələrdən qorunması üçün cari ilin aprel ayında 15 mühafizə qutusu quraşdırılmışdır. Hesabat dövründə Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismarı idarələrinin qəza-dispetçer sahələrinə, ***104*** nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 948 çağırış daxil olmuşdur. Çağırışlara vaxtında gedilmiş, təbii qazın nəqli bərpa olunmuşdur.

Aprel ayında muxtar respublika qaz şəbəkəsində 692 qaz sızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq bu sızmalar aradan qaldırılmış, ay ərzində yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar olaraq müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə edilmişdir.

Muxtar respublikanın rayon qaz istismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işləri aparılmışdır.

*Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti*

*Rabitə və internet xidmətlərinin ən mühüm elementlərindən biri hesab olunan fiber-optik kabel şəbəkəsinin əhatə dairəsinin ildən-ilə artırılması istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir.*

## “Gənclər şəhərciyi” yaşayış komplekslərində “Evədək optika” layihəsi tətbiq edilir

Hazırda muxtar respublikanın mövcud telekommunikasiya şəbəkəsinin əsasını təşkil edən fiber-optik şəbəkə vasitəsilə bütün yaşayış məntəqələrinə və bir sıra qurumlara kəsintisiz rabitə və internet xidmətləri təqdim olunur. Fiber-optik şəbəkənin genişləndirilməsi evlərə də fiber-optik kabelin çəkilməsinə imkan verib. 2022-ci ilin ötən dövrü ərzində “Evədək optika” layihəsi uğurla davam etdirilib, 10 fərdi mənzilə fiber-optik xətlər çəkilib, zəruri avadanlıqlar quraşdırılıb. Həyata keçirilən tədbirlərin məntiqi davamı olaraq əhaliyə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsi məqsədilə Naxçıvan şəhərinin Mərkəzi Avtomat Telefon Stansiyasına 3 ədəd 1248 abonentlik internet plataları artırılmışdır. GPON texnologiyası əsasında həyata keçirilən “Evədək optika” layihəsi çərçivəsində Naxçıvan şəhəri Çənlibel Avtomat Telefon Stansiyasından 1900 metr məsafədə Əziz Əliyev küçəsində yerləşən “Gənclər şəhərciyi” yaşayış kompleksinə kabel-kanalizasiya qurğuları vasitəsilə 48 lifli fiber-optik xətlər çəkilir. Bunlarla yanaşı, Mərkəzi Avtomat Telefon Stansiyasından Naxçıvan şəhərinin 49-cu məhəlləsində yeni inşa olunmuş “Gənclər şəhərciyi” yaşayış kompleksinə 2750 metr məsafədə inşa olunmuş kabel-kanalizasiya qurğuları vasitəsilə 48 lifli fiber-optik xətlər çəkilir. Sözügedən ünvanlardakı yaşayış komplekslərində olan mənzillərə internet GPON (Gigabit tutumlu passiv optik şəbəkə) texnologiyası əsasında optik paylayıcı abunə qutuları vasitəsilə veriləcəkdir. Bütün bunlar da, öz növbəsində, istifadəçilərin GPON texnologiyası əsasında fi-



ber-optik xətt üzərindən 100 Mbit/s-ə qədər qoşulma, kəsintisiz internet və digər interaktiv xidmətləri istifadəçilər üçün əlçatan edir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi və “Buta Global Enerji” şirkəti ilə bağlanmış müqaviləyə əsasən telekommunikasiya şəbəkəsi qurularkən Prysmian Group şirkətinin “Draka” markalı yüksəkkeyfiyyətli kabel məhsullarından istifadə olunur. Həmin kabellər İtaliya keyfiyyət standartlarında və Türkiyə istehsal gücündə Naxçıvan Muxtar Respublikası üçün xüsusi olaraq istehsal edilir. İnkişaf etmiş dünya ölkələrində də odadavamlı, yüksəkkeyfiyyətli Prysmian Draka kabellərdən fiber-optik xətt çəkilişində, yeraltı və hava rabitə xətlərinin çəkilməsi zamanı istifadə olunur.

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti*

Ordun varsa, yurdun var

# Günnüt əməliyyatı ordumuzun gücünü ortaya qoydu

*Artıq 4 ildir ki, Naxçıvan-Sədərək magistral yolunun kənarındakı "Günnüt" yazılan lövhəyə baxanda qürur hissi keçiririk. Çünki bu lövhənin göstərdiyi istiqamətə gedən yol bizi azad Vətən torpağına aparır. Amma sıradan sadə bir yol deyil bu yol. Tariximizin səhifələrinə qızıl hərflərlə həkk olunmuş qəhrəmanlıq dastanıdır, şərəf, qeyrət, igidlik yoludur.*





Ötən əsrin 90-cı illəri yaddaşımıza həm çətin, həm də birlik, qəhrəmanlıq illəri kimi yazılıb. Həmin illərdə Azərbaycanımız bədnam qonşularımızın hücumuna məruz qalmışdı. Muxtar respublikamızdakı vəziyyət isə heç də ürəkaçan deyildi. Düşmən hücumları ilə bərabər blokadaya alınan yurdumuzda insanlar çətin də olsa, düşmən hücumlarının qarşısını mərdliklə alır, bir addım olsun belə, geri çəkilmirdilər. O günlərdə Şərur rayonunun Sədərək, Günnüt, Havuş və Şahbulaq kəndləri aramsız düşmən hücumlarına məruz qalırdı. Mənfur düşmənlərin atdıqları mərmilər rayon mərkəzinə belə, düşürdü. Düşmənə əsir düşən Günnüt qəlbimizin sızlayan yarasına çevrilmişdi. O Günnüt ki orada Asəf Rəhimov kimi Vətən oğulları son nəfəsinədək döyüşmüş, düşmənə əsir düşməmək üçün son gülləsi ilə öz canına qıymışdı. Onun da ruhu düz 26 il idi ki, həsrətlə yolumuzu gözləyirdi. Gözləri yol çəkdikcə doğma yurdun səbri tükənirdi igidlərin. Və həmin gün – 2018-ci ilin bir yaz səhəri hamını sevinc göz yaşına boğan bir xəbər gəldi: Günnüt azaddır. Bu iki kəlmənin sədası düşməni qorxuya saldı. Elə bir qorxuya ki bu xəbərin düzgünlüyünü təsdiq edəcək cəsarətləri olmadı. Ermənistan hakimiyyəti onlar üçün utancverici bu hadisəni günlərlə öz xalqından gizlətdi.

Ali Baş Komandan cənab İlham Əliyev 2018-ci ildə qazanılan bu zəfər haqqında danışarkən Naxçıvanın müdafiə potensialının möhkəmləndirilməsinə həmişə böyük diqqət göstərildiyini, bu gün Naxçıvan Ordusunda olan hərbi texnikanın, bəlkə də, bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstün olduğunu vurğulayaraq deyib: ***"Əlbəttə ki, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı – üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir. O əməliyyat Ermənistanda hakimiyyət dəyişikliyinə təsadüf etdi, ona görə hakimiyyətə gəlmiş yeni iqtidar bunu bir növ ört-basdır etməyə çalışdı. Biz də heç üstünü vurmadıq. Çünki bizə hansısa təbliğat yox, real iş lazımdır. Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır. Günnüt əməliyyatı, biz də dediyim kimi, bunun üstünü vurmaq istəmədik. Amma ondan sonra Ermənistanın artıq devrilmiş hakimiyyətinin jurnalist nümayəndələri gedib bizim yeni postlarımızı çəkib, bunu internetdə qoyubdur, paylaşıbdır və ondan sonra Ermənistanda hay-küy qalxdı. Onda mən dedim ki, daha biz də niyə gizlətməliyik? Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə tapşırıq verdim ki, siz də məlumat verin, çəkiliş qrupu göndərin və çəkiliş qrupu getdi, həmin o yüksəklikləri gördü. Yəni Günnüt əməliyyatı Naxçıvan Ordusunun potensialını göstərdi, Azərbaycan Ordusunun potensialını göstərdi".***



Bəli, heç bir itki verilmədən 2018-ci ilin may ayında kənd və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edildi. Bununla da ordumuz daha əlverişli mövqelərə sahibləndi, Xunut dağı və Ağbulaq yüksəkliyi, daha sonra isə Qızılqaya dağı və Mehridağ işğaldan azad edilərək Dərələyəz mahalının Arpa kəndi (ermənilər adını dəyişdirərək "Areni" qoymuşdular) nəzarət altına keçdi. Ümumilikdə, 11 min hektara yaxın ərazi düşməndən azad edildi. Bu ərazinin isə 8 min hektardan çoxu əkin üçün, xüsusilə dəmyə əkinçiliyi üçün yararlı ərazilərdir. Günnütü nəzarətdə saxlamağa imkan verən, dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə ordumuza İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verməsidir. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub. Qazanılan uğur Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən ***"Uğurlu Naxçıvan əməliyyatı"*** adlandırılıb. 2018-ci il iyulun 3-də qələbədən bir neçə gün sonra Ali Məclisin Sədri işğaldan azad edilən Günnüt kəndindəki Qızılqaya yüksəkliyində və müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti ilə tanış olduğu görüşündə deyib: ***"Aprel döyüşləri Azərbaycan Ordusunun hərbi qüdrətini göstərdisə, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun nə qədər böyük manevr qabiliyyətinə malik olduğunu təsdiq etdi".***

Aprel, Günnüt Zəfəri ilə addım-addım böyük qələbəyə doğru gedən yola nəzər salanda gördüklərimiz qəlbimizi qürurla doldurur. Bir vaxtlar Qızılqayadan Qarabağımızın başıqarlı dağlarına baxanda görəsən nə vaxt o dağlara, o ellərə əbədi qayıdacağıq, Qarabağda nə vaxt toy-büsat quracağıq deyirdik. Zəfərdən cəmi iki il sonra Qızılqayadan o ellərə fəxrlə baxır igidlərimiz. Bu gün böyük qürur hissi ilə deyirik ki, Günnüt Zəfərini qazanan igidlərimizin səsi Vətən müharibəsində Şuşadan, Cəbrayıldan, Zəngilandan gəldi. Həm Aprel döyüşləri, həm Günnüt Zəfəri Azərbaycan əsgərinin gücünü bir daha göstərdi. Belə ki, bu qələbə yürüşümüz ərazi bütövlüyümüz bərpa olunana kimi davam etdi. Və o zaman şanlı bayrağımız bütöv Azərbaycanın başı üstündə dalğalanıb "Gözün aydın, Vətən!" – dedi.

**Ramiyyə ƏKBƏROVA**

## IELTS qeydiyyat və imtahan mərkəzində ilk sınaq imtahanı



Naxçıvan Dövlət Universiteti Xarici dillər fakültəsində yaradılan IELTS qeydiyyat və imtahan mərkəzində sınaq imtahanı keçirilib. 50-yə yaxın nəfərin iştirak etdiyi imtahanda namizədlərin oxuma, yazma, dinləmə bacarıqları yoxlanılıb, fərdi danışıq qabiliyyətləri nəzərə alınaraq qiymətləndirmə aparılıb. İmtahanda oxuma və dinləmə prosesində sualların tərtib edilməsini, yazı və danışıq mərhələsində sualların hazırlanmasını IELTS mərkəzinin koordinatoru, Beynəlxalq münasibətlər kafedrasının müəllimi Bayram Əliyev həyata keçirib.

Qeyd edək ki, mərkəz Azərbaycan ali təhsil məkanında ilk dəfə olaraq məhz muxtar respublikadakı ali təhsil ocağında yaradılıb və qeydiyyat və imtahan mərkəzi kimi fəaliyyət göstərir. Yaradılan mərkəzin məqsədi muxtar respublikada bu sahə üzrə ingilis dili bacarıqlarının qiymətləndirilməsi və namizədlərin beynəlxalq sertifikatla təmin olunmasıdır.

Məlumat üçün onu da bildirək ki, mərkəz yaxın zamanda universitetdə ingilis dilində ixtisasların sayının artmasına və qeyri-ixtisaslarda çalışan əməkdaşların ingilis dili bacarıqlarının qiymətləndirilməsinə müsbət təsir göstərəcək. Onu da qeyd etmək yerinə düşər ki, artıq beynəlxalq əməkdaşlıqda irəliləyən ali təhsil ocağının gələcək perspektivlərində, ikili diplom layihələrində iştirakının təmin olunmasında xarici dil biliklərinin qiymətləndirilməsi vacib fakt kimi əhəmiyyətlidir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## II və III ixtisas qrupları üzrə qəbul imtahanları keçirilib

*Dövlət İmtahan Mərkəzi tərəfindən mayın 21-də III, mayın 22-də isə II ixtisas qrupu üzrə qəbul imtahanları keçirilib.*

İmtahanlar respublikanın 17 şəhər və rayonunda təşkil olunub. İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə, 189 imtahan binası, 3322 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 189 ümumi imtahan rəhbəri, 544 imtahan rəhbəri, 4158 nəzarətçi-müəllim, 503 buraxılış rejimi əməkdaşı, 189 bina nümayəndəsi cəlb edilib. İmtahanlarda, ümumilikdə, 44 min 399 abituriyent iştirak edib.

Naxçıvan Muxtar Respublikasında mayın 21-də III ixtisas qrupu üzrə imtahan Naxçıvan şəhəri 5, 11, 14 nömrəli və Heydər Əliyev adına tam orta məktəb binalarında təşkil edilib və 979 abituriyentin iştirakı təmin olunub. 79 zalda keçirilən imtahanın aparılmasına 12 rəhbər, 103 nəzarətçi cəlb edilib.

Mayın 22-də II ixtisas qrupu üzrə imtahan isə Naxçıvan şəhər 11, 14, 15, 17 nömrəli tam orta məktəb binalarında, 80 zalda keçirilib. 983 nəfərin iştirak etdiyi imtahana 12 rəhbər, 104 nəzarətçi ayrılıb. İmtahanlar $11^{00}$-da başlanıb və 3 saat davam edib.

Nəticələr yaxın vaxtlarda açıqlanacaq.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Tələbələrin hesabat konserti

Naxçıvan Müəllimlər İnstitutunda Musiqi müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrin hesabat konserti keçirilib. Tədbiri giriş sözü ilə açan institutun rektoru Azad Novruzov çıxışında hesabat konsertlərinin tələbələrin musiqi-ifaçılıq bacarıqlarının inkişaf etdirilməsində əhəmiyyətindən, bu ixtisasda tədrisin təşkili vəziyyəti və qarşıda duran vəzifələrdən danışıb. Qeyd edilib ki, ali təhsil ocağında 2020-2021-ci tədris ilindən Musiqi müəllimliyi ixtisasında kadr hazırlığı aparılır. Hazırda bu ixtisasda 13 tələbə təhsil alır. Bundan başqa, musiqi fənni İbtidai sinif müəllimliyi və Məktəbəqədər təhsil ixtisaslarında da tədris olunur. Rektor vurğulayıb ki, Musiqi müəllimliyi ixtisasından məzun olan tələbələr gələcəkdə şagirdlərin musiqi qabiliyyətlərini üzə çıxarmaq, onların istedadlarını inkişaf etdirmək, zövqünü formalaşdırmaq... müəssisələrində şagirdlərin yaş qrupları və malik olduqları istedadları nəzərə alaraq onların uyğun musiqi, bilik və bacarıqlarına yiyələnmələrini yüksək səviyyədə təmin etməli, eyni zamanda planlama və təşkilatçılıq, vaxtı səmərəli idarə etmək, səbirli olmaq və peşə etikasına uyğun davranışlar sərgiləmək bacarıqlarına yiyələnməlidirlər.

Sonra tələbələrin hesabat konserti olub. Azərbaycan klassik, xalq mahnılarından ibarət konsert proqramında xarici ölkə bəstəkarlarının da mahnıları ifa edilib. Tələbələrin ifasında səslənən mahnılar, fortepiano və nağara ifaları və digər çıxışlar tamaşaçılar tərəfindən bəyənilib, alqışlarla qarşılanıb.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

Son illərdə muxtar respublikamızda ekologiyanın mühafizəsi, bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilib, yeni əkilən ağacların suvarılmasında damcı üsulunun tətbiqi genişləndirilib, bəzək kolları, həmişəyaşıl, həmçinin

## Yaşıllıq ərazilərinə aqrotexniki qulluq tədbirləri davam etdirilir



meşə ağaclarının əkilməsi, müntəzəm olaraq onlara aqrotexniki qulluq göstərilməsi diqqət mərkəzində saxlanılıb.

Cari ildə də bu tədbirlər davam etdirilməkdədir.

May ayının 14-də Naxçıvan şəhərinin sakinləri, idarə, müəssisə və təşkilatların nümayəndələri Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun kənarındakı sahədə, müəssisə və təşkilatların yaşıllıq ərazilərində və Naxçıvan-Sədərək magistral yolunun kənarındakı yaşıllıqlara aqrotexniki qulluq göstəriblər. Həmin gün1500 gül kolu əkilib, ahıl vətəndaşın evində təmizlik işləri aparılıb.

Şərur rayonunun Gümüşlü kəndindəki yaşıllıq sahələrində, rayonun müəssisə və təşkilatların ərazilərində quru budama, ağartma, suvarma işləri həyata keçirilib.

Ötən şənbə günü Babək rayonunun sakinləri tərəfindən Babək şəhər – Araz kəndi yolunun kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilib, təmizlik işləri aparılıb.

Ordubad rayonunda Naxçıvan-Ordubad magistral yolunun kənarlarında, Qazi massivində və Bayraq Meydanında, həmçinin turizm əhəmiyyətli kənd yollarında yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Culfa rayonunda yol kənarlarındakı alaq otları biçilib, suvarma işləri görülüb.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral avtomobil yolunun Xok kəndi hissəsindəki və Qıvraq-Şahtaxtı avtomobil yolunun kənarlarındakı bağlarda yaşıllıqlara aqrotexniki qulluq tədbirləri həyata keçirilib.

Şahbuz şəhərində və kəndlərdəki yaşıllıqlara da aqrotexniki qulluq göstərilib.

Bu tədbirlər Sədərək rayonunun Heydərabad qəsəbəsi və Qaraağac kəndindəki bağlarda da həyata keçirilib, Dəmirçi-Kərimbəyli avtomobil yolunun kənarlarında 450 söyüd ağacı əkilib.

Aqrotexniki tədbirlərdə 18 min 400 nəfər iştirak edib. Ümumilikdə, 1950 olmaqla, 450 meşə ağacı, 1500 gül və bəzək kolları əkilib.

**Xəbərlər şöbəsi**

***Qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan həmişə özünün şairləri, yazıçıları, memarları, rəssamları, musiqiçiləri, bəstəkarları, ümumiyyətlə, elm və incəsənət sahəsi ilə bütün dünyada tanınıb. Mən bu sıraya dirijorları da əlavə edərdim. Çünki musiqi mədəniyyətinin təbliğində, hər hansı bir konsertin uğurlu alınmasında, onun dünyaya yayılmasında dirijor əməyi böyük rol oynayır. O yalnız musiqiçiləri ruhlandırıb onlara yön vermir, həm də bir sıra idarəçi xüsusiyyətləri ilə sanki böyük bir biznesi idarə edənlərə bənzəyir. Belə ki, dirijor da kollektiv işində mükəmməlliyə nail olmaq üçün hər bir insanın xarakterinə, qabiliyyətinə bələd olmalı və hər kəsin üzərində işləyə biləcəyi ortaq bir zəmin tapmalıdır. Nə qədər zərif olsa da, daxili gərginliyi aradan qaldırmalı, uzaqgörən olmalı, görülən işin məqsədini və ya missiyanın nə olduğunu daim xatırlatmalı, bir sözlə, kollektivə (ansambla) xidmət etməlidir. Dirijorun əl hərəkətləri, üzünün ifadəsi, baxışı, mimikası ansamblın həmahəng səslənməsində, ifanın texniki kamilliyinin təmin edilməsində, əsərin ideya məzmununu, üslubunu və bədii məqsədini idarə etdiyi kollektivə çatdırmaqda mühüm rol oyanır. Sevindirici haldır ki, dirijorluq sənəti Naxçıvanımızda da formalaşmış, inkişaf etmiş və hazırda da yaşadılmaqda davam edir.***

## Naxçıvan mədəniyyətində bir çox ilklərə və yeniliklərə imza atan, fədakar əməyi sayəsində böyük uğurlar qazanan qadın dirijor



Bu sənətin inkişafına böyük xidmətləri olmuş qadın dirijorlarımızdan biri də Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü, Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Fortepiano kafedrasının professoru, xormeyster, bəstəkar Səidə Məmmədovadır. Bu yaxınlarda 80 yaşı tamam olacaq bu xanım Azərbaycan mədəniyyətinə, incəsənətinə böyük töhfələr vermişdir. Mən də bu incəsənət xadimini haqqında oxuduğum kitablar və məqalələr vasitəsilə bir daha "kəşf etdim" və istərdim ki, oxucularımız da ömrünü mədəniyyətə sərf etmiş bu zərif xanımla bir daha tanış olsunlar.

Səidə Məmmədova 1942-ci il mayın 25-də Naxçıvan şəhərində ziyalı ailəsində anadan olub. 1960-cı ildə Naxçıvan şəhər 1 nömrəli uşaq musiqi məktəbini bitirdikdən sonra Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunun Xor-dirijorluq şöbəsinə daxil olub. 1964-cü ildə texnikumu uğurla bitirən Səidə Məmmədova elə həmin il də Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında ixtisası üzrə təhsilini davam etdirir. Burada Azərbaycanın görkəmli bəstəkarı Cahangir Cahangirov və Eduard Novruzovun sinfində təhsil alan Səidə xanımın sənətinə olan sonsuz sevgisi də bu zaman yaranır. Bu sevgi onu gənc yaşlarından müəllimlik fəaliyyətinə başlamağa ruhlandırır. Birinci kursda oxuyarkən Bakıda musiqi məktəblərindən birində müəllim kimi çalışır. Bu zaman şagirdlərindən ibarət ilk uşaq xorunu yaradır və həmin xora dirijorluq edir. 1969-cu ildə ali təhsilini başa vurduqdan sonra təyinatla Naxçıvana qayıdan Səidə Məmmədova Naxçıvan şəhər 1 nömrəli uşaq musiqi məktəbində müəllim və xormeyster kimi pedaqoji fəaliyyətini davam etdirir. Bu məktəbdə bir çox istedadlı musiqiçi kadrlar yetişdirən Səidə xanım həm də bir çox dövlət konsertləri üçün yeni nömrələr hazırlayır və həmin konsertlərdə dirijor kimi çıxış edir. Həmçinin o, sonralar muxtar respublikamızın musiqi mədəniyyətinə töhfələr verən "Nəxşicahan" adlı xalq çalğı alətləri ansamblı yaradır. O, 1975-ci ildə Naxçıvan Orta İxtisas Musiqi Məktəbinin yaradılmasının ilk təşəbbüskarı və ilk direktoru olur. Hələ 1970-ci illərin ortalarında Naxçıvan mühitində ali təhsilli musiqiçi kadrların çatışmadığı bir dövrdə bu məktəbin açılması böyük əks-səda doğurur. Səidə xanım burada pedaqoji fəaliyyətlə yanaşı, musiqinin müxtəlif sahələri üzrə yaradıcılığını da davam etdirir, Naxçıvanda musiqi mədəniyyətinin inkişafı üçün bir çox yeniliklərə imza atır.

Blokada vəziyyətində yaşayan Naxçıvanda professional xor kollektivini yaratmağa müvəffəq olan Səidə Məmmədova Naxçıvanda xor musiqisinin ilk təməlini qoyan yaradıcı bir musiqiçi kimi adını Azərbaycan musiqi mədəniyyəti tarixinə də qızıl hərflərlə yazdıra bilir. Milli musiqiyə üstünlük verən bu xorun repertuarında Cahangir Cahangirov, Ramiz Mirişli, Qara Qarayev kimi bəstəkarların müxtəlifməzmunlu mahnılarının səsləndirilməsi ilə yanaşı, Üzeyir Hacıbəyovun uvertüra ilə başlanan "Koroğlu" operasının zirvəsini təşkil edən "Çənlibel" mahnısı xorun ifasına daxil edilir. Bununla da Səidə xanım həm də xormeysterlik kimi fəaliyyətin öhdəsindən layiqincə gələ bilir.

Onun yorulmaz fəaliyyəti növbəti uğurların təməlini qoyur. 1972-ci ildə Naxçıvan MSSR-in yaradılmasının 50 illik yubileyi ilə əlaqədar konsert proqramı üçün Cahangir Cahangirovun "Naxçıvan haqqında kantata"sını hazırlamaq Səidə xanıma həvalə olunur və onun nümayişi müvəffəqiyyətlə keçir. Çox keçmir ki, o, 1973-cü ildə Naxçıvan MSSR Ali Sovetinin Fəxri Fərmanı, 1974-cü ildə isə Naxçıvan Muxtar Respublikasında musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə və səmərəli fəaliyyətinə, qazandığı uğurlara görə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanları ilə təltif olunur. 1977-ci il 5 noyabr tarixdə oktyabr inqilabının 60 illiyinə həsr olunmuş konsertdə Ramiz Mirişlinin "Çiçəklənən Naxçıvan" vokal-xoreoqrafik süitasını hazırlayan Səidə Məmmədova növbəti böyük uğura imza atır və 1977-ci ildə isə Naxçıvan Muxtar Respublikasında bədii özfəaliyyətin inkişaf etdirilməsində xidmətinə və zəhmətkeşlərin bədii özfəaliyyət yaradıcılığının Birinci Ümumittifaq Festivalının hazırlanması və keçirilməsi sahəsindəki fəaliyyətinə görə "Naxçıvan MSSR-in Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülür.

1978-ci ildə dövlət səviyyəsində təşkil olunan bayram konsertində "Naxçıvan təranələri" süitasının Səidə xanımın dirijorluğu ilə təqdimatı əsl incəsənət hadisəsi kimi yaddaşlarda qalır. Səidə Məmmədovanın dirijorluq məharəti, orkestri ələ almaq bacarığı konsertin çox yüksək səviyyədə sona çatması ilə nəticələnir. Səidə xanım əzmkarlığı, qeyri-adi yaradıcılıq enerjisi, yüksək peşəkarlığı ilə milli musiqi salnaməsinə Azərbaycan Dövlət Simfonik Orkestrinin yüksək tərkibli heyətinə rəhbərlik edən ilk qadın dirijor kimi daxil olur. 1988-ci ildə "Şərq qapısı" qəzetinin (o zamanlar "Sovet Naxçıvanı" adı ilə fəaliyyət göstərirdi) müxbiri Ceyran Nəbiyevanın qəzetin 28 aprel tarixli nömrəsində Səidə xanım haqqında yazdığı məqalədə oxuyuruq: "Naxçıvan MSSR-in Əməkdar incəsənət xadimi Səidə Məmmədova muxtar respublikamızda incəsənətin, o cümlədən musiqi sənətinin inkişafı üçün həmişə yorulmadan çalışıb. "Yaxşı iş üz ağardır", – deyiblər. Bu gün ötən illərin xatirəsi kimi saxladığı diplomlar, fəxri fərmanlar xor cəmiyyətinin sədri, müəllim, bəstəkar dirijor Səidə xanımın zəhmətinə verilən ən yüksək qiymətdir".

1993-cü ildən pedaqoji fəaliyyətini Naxçıvan Dövlət Universitetinin nəzdində açılmış Konservatoriyada davam etdirən Səidə Məmmədova burada yaradılan İfaçılıq kafedrasına müdir vəzifəsinə təyin olunur, Naxçıvan Muxtar Respublikasında musiqi sənətinin inkişafındakı misilsiz xidmətlərinə görə İfaçılıq kafedrasının dosenti adına layiq görülür. 1997-ci ildə Naxçıvan Dövlət Universitetinin yaranmasının 30 illiyi münasibətilə keçirilən dövlət tədbirində Ramiz Mirişlinin "Doğma diyar" süitasının təqdimi alqışlarla qarşılanır. 1999-cu ildə ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyi münasibətilə keçirilən yubiley tədbirində Səidə xanımın dahi Üzeyir Hacıbəyovun Azərbaycanın şanlı qəhrəmanlıq tarixindən bəhs edən "Koroğlu" operasından "Çənlibel xoru" kimi qiymətli sənət töhfəsi ilə iştirakı onun fəaliyyətinə növbəti, ən böyük uğur kimi yazılır. 2000-ci ildə Naxçıvan Dövlət Universitetində AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü ilə yaradılan müəllim və tələbələrdən ibarət opera studiyasına rəhbərlik də məhz Səidə Məmmədovaya tapşırılır. Səidə Məmmədovanın rəhbərliyi ilə opera studiyasında 2001-ci ildə Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasından bir hissə, 2004-cü il "Arşın mal alan" musiqili komediyası uğurla səhnələşdirilir. 2007-ci ildə Prezident cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyi dövlət səviyyəsində qeyd olunur və bununla bağlı Səidə Məmmədovanın bədii rəhbər və dirijoru olduğu yubiley konserti təşkil edilir.

Səidə Məmmədova pedaqoji fəaliyyətilə yanaşı, bir sıra elmi əsərlərin, məqalələrin də müəllifidir. Onun peşəkar musiqi nəzəriyyəçisi kimi qələmə aldığı "Azərbaycan xor sənətinin işıqlandırılması", "Azərbaycan professional musiqisində 2000-ci illər ərəfəsində yazılmış xor işləmələri haqqında", "Naxçıvan musiqi mədəni həyatından bəzi səhifələr", "Azərbaycan bəstəkarlarının yaradıcılığında uşaq xor əsərlərində ifaçılıq xüsusiyyətləri", "Mənşəcə ən qədim musiqi aləti-fleyta", "Naxçıvan musiqi mədəniyyətinin panoraması" adlı məqalələri müxtəlif qəzet və jurnallarda işıq üzü görüb. Səidə Məmmədova həm də Naxçıvanın fortepiano ixtisası üzrə ilk professoru adını qazanıb.

Səidə xanımın musiqi mədəniyyətinə verdiyi töhfələr dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, müxtəlif fəxri fərmanlarla təltif olunub. Səidə Məmmədova 1977-ci ildə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Əməkdar incəsənət xadimi", 1988-ci ildə "Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi" fəxri adları, 2007-ci ildə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub, 2007-ci ilin may ayında isə Azərbaycan Respublikası Prezidentinin fəxri təqaüdünə layiq görülüb. Səidə xanımın zərif qəlbinin, Vətən sevgisinin məhsulu olan "Sevirəm yurdumu", "Ürəkdir sevən səni", "Ülkərim", "Ayrılıq", "Könlümdəsən həmişə", "Görüş", "Nigarım mənim", "O kaman səsi", "Naxçıvan" və başqa bəstələri bu gün də könülləri oxşayır.

Yetirmələrinin uğurları ilə öyünən tanınmış dirijor, sevilən pedaqoq, incəsənət xadimi, ömrünün 80-ci zirvəsində olan Səidə xanım Naxçıvanda musiqi sənətinin inkişafındakı xidmətləri, incəsənət sahəsindəki özünəməxsus dəstxəti ilə tamaşaçıların qəlbində yaşayacaq sənətkarlarımızdandır.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Qitə birinciliyindən uğurlu nəticələr



Naxçıvan karateçiləri Bolqarıstanın Albena Kranevo şəhərində keçirilən 12-ci Avropa Şotokan Çempionatında yeni uğurlar qazanıblar. Dünya Şotokan Federasiyasının təşkilatçılığı ilə keçirilən yarış 20-22 may tarixlərini əhatə edib. Çempionatda 8 yaşlı uşaqlardan tutmuş 53 yaşadək veteranlar və paralimpiyaçılar müxtəlif yaş və çəki kateqoriyaları üzrə mübarizə aparıblar. 16 ölkədən 422 karateçi tatamidə öz bacarıqlarını nümayiş etdirib. Karatenin "kata", "şobu ippon", "şobu sanbon", "WKF kumite" üslublarında qaliblər müəyyənləşib.

Naxçıvan Karate-do Federasiyasından məşqçi Siyavuş Bayramovun rəhbərliyi ilə turnirə qatılan 9 idmançının hər biri mükafatçılar sırasına düşüb. Təmsilçilərimiz 7-si qızıl, 7-si gümüş və 16-sı bürünc olmaqla, 30 medal qazanıblar.

16-17 yaşlılar arasında çıxış edən Vüsal Seyidov 3 fərqli üslubda qalib, komandası ilə bərabər isə gümüş medalçı kimi muxtar respublika idmançıları arasında ən yaxşı nəticəyə müvəffəq olub. Rəşad Qasımov "şobu ippon", Məhəmməd Bağırov "WKF kumite", Canər Abbaszadə və Saleh Qənbərov isə "şobu sanbon" üzrə birinci olub, digər üslublarda isə ilk üçlükdə qərarlaşıblar. Qafar Hüseynov, Nərgiz Həsənli, Yaqub Qənbərov və Rafiq Hüseynli hərəyə 3 medal qazanıblar.

Azərbaycan ümumi sıralamada 46 (16 qızıl, 10 gümüş, 20 bürünc) medal sayı ilə 5-ci olub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### Redaksiyamıza yazırlar

## Dövlət dəstəyi hesabına təsərrüfatımızı genişləndirməyə, maddi təminatımızı yaxşılaşdırmağa nail olmuşuq

*Hörmətli redaksiya!*

Bu məktubu sizə Şahbuz rayonunun Badamlı qəsəbəsindən yazıram. Yoldaşım vəfat edib. Oğlum, gəlinim və iki azyaşlı nəvəmlə yaşayıram.

Əvvəl qeyd etməyi özümə borc bilirəm ki, bu gün muxtar respublikamızda bütün sahələrə, eləcə də ailələrə və qadınlara yüksək diqqət və qayğı göstərilir. Ailələrin sosial rifah halı günbəgün yaxşılaşdırılır, qadınların cəmiyyətin bütün sahələrində təmsil edilməsi üçün dövlətimiz tərəfindən lazımi tədbirlər görülür, bu istiqamətdə müxtəlif sosial layihələr icra olunur. Qadınların məşğulluqlarının təmin edilməsi sahəsində görülən işlər öz bəhrəsini verir, qadın sahibkarların sayı getdikcə artır, ailə təsərrüfatları inkişaf edir.

Onu da bildirim ki, mənim özüm də iki il bundan əvvəl Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən icra olunan sosial layihədə iştirak etdim və sərmayə kapitalı aldım. Həmin sərmayə kapitalı dəyərində bir baş iribuynuzlu heyvan alaraq öz ailə təsərrüfatımı qurmağa başladım. Artıq bu gün təsərrüfatımdakı iribuynuzlu heyvanların sayını 26 başa çatdırmışam. İstehsal etdiyimiz məhsulları bazara çıxarıram.

Hörmətli redaksiya! İnanıram ki, sizə ünvanladığım bu minnətdarlıq məktubu təkcə mənim yox, dövlətin qayğısı nəticəsində arzularını reallaşdırmış onlarla muxtar respublika qadınının ürəyindən keçənləri xəbər verir.

Sizin vasitənizlə çoxsaylı zəhmətkeş muxtar respublika qadınları adından dövlətimizə minnətdarlığımı bildirir, qəzetinizə fəaliyyətində uğurlar arzu edirəm.

**Bahar SEYİDOVA**
***Şahbuz rayonunun Badamlı qəsəbə sakini***

## Stomatologiya sahəsində peşəkar həkimlərimiz çalışır

*Salam, hörmətli redaksiya!*

Bu gün muxtar respublikamızda səhiyyə sistemində uğurlu inkişafın şahidi oluruq. Xüsusilə dişlərin müalicəsi ilə bağlı olan stomatologiya sahəsində yeni nailiyyətlər qazanılıb. Bunun bir səbəbi də diyarımızda bu sahədə peşəkar həkimlərin çalışması ilə bağlıdır. Belə peşəkar stomatoloqlardan biri də Azər Həsənovdur. Bu məktubu yazmaqda da məqsədim hazırda Naxçıvan Muxtar Respublikası "Stomatoloji Mərkəz" publik hüquqi şəxsin baş həkimi, stomatoloq Azər Həsənova minnətdarlıq etməkdir.

Qeyd edim ki, burada quraşdırılan tibbi avadanlıqlar diş xəstəliklərini ən müasir şəkildə müayinə və müalicə etməyə imkan verir. Stomatoloji xidmət zamanı sanitar-gigiyenik qaydalara ciddi riayət olunur. 15 il bundan qabaq dişlərimi müalicə üçün başqa bir həkimə müraciət etsəm də, arzuladığım kimi olmamışdı. Sonradan dişlərimdə iltihablaşma olduğundan tez-tez məndə başağrısı yaradırdı. Azər həkim işinin peşəkarı kimi mənim köməyimə çatdı. Dişlərimin çəkimini tam ağrısız həyata keçirdi. Həmçinin müqəddəs Ramazan ayına görə müayinə və müalicə prosesini təmənnasız etməyi boynuna götürdü. Azər həkimə qəzetiniz vasitəsilə dərin minnətdarlığımı bildirirəm.

Bir məsələni də diqqətə çatdırım ki, dişlər sağlamlığımızın göstəricisi olmaqla bərabər, həm də estetik görünüşümüzdə mühüm rol oynayan elementlərdən biridir. Ona görə də dişlərinizi qoruyun və qayğısına qalın.

**Solmaz TAĞIZADƏ**
***Naxçıvan şəhəri, Qaraxanbəyli kənd sakini***


### İtmişdir

Kəngərli rayonunun Qarabağlar kənd sakini Cabbarov Səfər Nəriman oğlunun adına olan 0900085562 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Culfa şəhər sakini Behbudov Fərid Azad oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 446